


# Nodulyar dermatit xəstəliyi

# Xüsusiyyətlər

- Qaramalda, zebularda həmçinin Asiya camışlarında baş verən virus mənşəli xəstəlikdir
- Qısa müddətli isitmə, dəri örtüyünün, limfa sisteminin, selikli qişanın zədələnməsi, dərialtı toxumalarda düyünlərin və nekrozların **əmələ gəlməsi** ilə səciyyələnir.
- İnkubasiya dövrü 2-4 **həftə** arasında olur
- Qansoran **həşə**ratlarla yay**ılır**
- Yoluxduqdan 3-4 gün sonra hərarətin qalxması və dərialtı şişlərin əmələ gəlməsi nəticəsində özünü biruzə verir
- **Şiş**kinliklərin **əmələ** gəlməsi, dərinin epiteli hüceyrələrinin hiperplaziyası ilə müşayiət olunur
- Dərinin derma hissəsinin şişkinliyi damarların trombozu nəticəsində ətraf toxumalar nekrozlaşır
- İltihab prosesi limfa vəzilərini əhatə edir
- Limfa vəzilərinin, damarların iltihabı, xoralı yaraların əmələ gəlməsi, septik mürəkkəbləşmələr ikincili infeksiyanın yaranmasına səbəb olur



# Yoluxucu Nodulyar Dermatit xəstəliyinin əlamətləri

## Xəstəliyin iti formasında

- Hərarətinin 40 °C-yə qədər artması
- İştahanın zəifləməsi
- Gözdən yaş axması
- Burunun selikli qişasında axıntıların olması
- Xəstəliyin 48 saatından sonra dəri üzərində 0,5-7 sm ölçüdə hündürlüyü 0,5 sm olan girdə formalı düyünlərin əmələ gəlməsi
- Dərialtı limfa vəzilərinin həcmcə böyüməsi
- Xəstə heyvanların sürətlə çəki itirməsi (arıqlaması)
- Məhsuldarlığın azalması
- Nadir hallarda sinir pozğunluğu və aqresivliyin baş verməsi
- Heyvanlarda balasalmanın qeydə alınması müşaiət olunur



# Xəstəliyinin ağır formasında baş verən hallar

- Uzun müddətli isitmə
- İştahanın kəsilməsi
- Arıqlamanın baş verməsi
- Bədən nahiyəsinin hər yerində və görünən selikli qişalarında şişkinliklərin əmələ gəlməsi
- Xəstəliyin ağırlaşma dövründə traxeyanın və udlağın zədələnməsi
- Bronxopnevmoniya nəticəsində heyvanlarda asfiksiya müşahidə olunaraq ölümün baş verməsi



## Profilaktika tədbirləri

- Xəstələnmiş heyvanların 90%-i sağalır
- Heyvanlar üçün xüsusi saxlama və yemləmə şəraiti yaradılmalıdır
- Xəstə heyvanlar təcrid olunmalıdır
- Baytar həkiminin nəzarəti və iştirakı ilə ərazi dezinfeksiya edilərək heyvanlar çimizdirilməlidir
- Həmçinin xəstəliyin yayılmasının qarşısını almaqdan üçün qansoran həşəratlara qarşı tədbirlər görülməlidir

**QEYD**

Aqrar Xidmətlər Agentliyi (AXA) fermerlər və təsərrüfat sahiblərinin nəzərinə çatdırır ki, heyvanları dövlət vəsaiti hesabına aparılan vaksinasiyadan yayındırmasınlar, eləcə də yuxarıda qeyd edilən əlamətlər müşahidə edildikdə sahə baytarlıq məntəqəsinə və ya rayon (şəhər) baytarlıq idarəsinə təcili olaraq müraciət etsinlər



Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A
Çağrı Mərkəzi **1652**
info@axa.gov.az
**www.axa.gov.az**

Aqrar Xidmətlər Agentliyi